0158 45x32 100 qr ofset 1000 list ÜZ

7.6. Bu Müqaviləyə əsasən tərəflər öhdəliklərinə götürdükləri vəzifələrin icrasının üçüncü şəxslər tərəfindən təmin olunmasına yalnız qarşı tərəfin yazılı razılığı əsasında yol verə bilərlər.
7.7. Abunəçinin təşəbbüsü ilə bu Müqaviləyə xitam verildiyi halda Abunəçi bu barədə Operatoru təqvim ayının qurtarmasına ən azı 5 (beş) iş gün qalmış yazılı xəbərdar etməlidir.
7.8. Müqaviləyə xitam tərəfləri bu Müqavilə üzrə öhdəlikləri yerinə yetirməkdən azad etmir.
7.9. Bu Müqavilə Azərbaycan dilində eyni hüquqi qüvvəyə malik 2 (iki) əsli nüsxədə imzalanmışdır. Bir nüsxə Operatorda digər nüsxə isə Abunəçidə saxlanılır.

**8. FORS-MAJOR**

8.1. Tərəflər, fors-major səbəblərinə görə hazırkı Müqavilə şərtlərinə uyğun olaraq göstərilmiş vaxtda öz öhdəliklərini tam və lazımınca təmin edə bilmədikdə, əlaqədar məsuliyyətdən müvafiq nisbətdə azad edilirlər və həmin öhdəliyin icrası vaxtı baş vermiş fors-major halının müddəti qədər uzadılır. Yalnız fors-major halları bitdikdən dərhal sonra Tərəflər biri-birinə qarşı olan öhdəliklərini, Abunəçinin fors-major zamanı yaranmış borcunu ödəməsi vəzifəsi daxil olmaqla, daşımaqda davam edirlər.
8.2. Bu maddədə "fors-major" termininin işlədilməsi təbii fəlakət, partlayışlar, yanğınlar, müharibə, hərbi müdaxilə, inqlablar, vətəndaş iğtişaşları və s. analoji hadisələr, dövlətin, bələdiyyənin və digər səlahiyyətli orqanların aktları, həmçinin ölkə ərazisində kənar gözlənilməz və həlli ölkə tərəfindən qeyri-mümkün ola bilən hadisələri, magistral internet təminatçılarında baş vermiş fəaliyyətsizliklər, bu göstərilən və ya digər hər hansı səbəblərdən telekomunikasiya şəbəkəsində istifadənin onun texniki imkanlarının aşması və (və yaxud) Tərəflərin ağılabatan şəkildə nəzərə ala bilməyəcəkləri digər öncədən görülməsi mümkün olmayan və (və yaxud) Tərəflərin nəzarəti xaricində olan (o cümlədən texniki səbəblərdən irəli gələn hallar da daxil olmaqla) hallar və (və yaxud) adi şəraitdə normal qayğı və diqqət sayəsində qaldırıla bilməyən və sair halları özündə cəmləşdirir.
8.3. Fors-major hallarının mövcud olması faktı və onların davam etməsi müddətləri Azərbaycan Respublikasının mülkü müdafiə, fövqəladə hallar və onların nəticələrinin aradan qaldırılması üzrə müvafiq səlahiyyətli dövlət orqanlarının verdiyi arayışla və yaxud müvafiq sənaye-ticarət palatalarının sertifikat, rəy və ya şəhadətnamələri ilə təsdiq olunur.

**9. MƏSULİYYƏT**

9.1. Tərəflər burada müəyyən edilən birgə fəaliyyəti ilə bağlı olan halları, o cümlədən öz öhdəliklərini tam və lazımınca yerinə yetirməməsinə görə müvafiq Tərəf və (və yaxud) hər hansı digər şəxslər qarşısında qanunvericiliklə nəzərdə tutulan məsuliyyəti tam həcmdə daşıyırlar.
9.2. Məlumatların tam gizliliyi şərtini pozan Tərəf, həmin məlumatarın açıqlanması nəticəsində qarşı Tərəfə vurulan maddi və mənəvi zərərə (o cümlədən, işgüzar nüfuzuna) görə tam həcmdə qanunvericiliklə müəyyən edilən məsuliyyəti daşıyır.
9.3. Tərəflərdən hər hansı biri bu Müqavilənin hər hansı şərtini təqsirli olaraq pozduğu halda, digər Tərəfə dəymiş zərərin əvəzini tam olaraq ödəyir.
9.4. Abunəçi bu Müqavilənin 3.2.6.-cı, 3.2.14.-cü və 3.2.30.-cu bəndlərinin müddəalarını pozduğu halda Operatora 200 (iki yüz) AZN məbləğində, 3.2.8 bəndinin müddəalarını pozduğu halda Operatora hər avadanlıq üzrə 200 (iki yüz) AZN məbləğində cərimə ödəməyə borcludur.
9.5. Abunəçi bu Müqavilə üzrə ödəməli olduğu zərərin həcmini digər tərəfin yazılı xəbərdarlığını aldığı gündən etibarən 10 (on) bank günü ərzində ödəməlidir.
9.6. Zərər həcminin ödənilməsi Tərəfləri bu Müqavilə ilə müəyyən edilmiş öhdəliklərin icrasından azad etmir.
9.7. Bu Müqavilədə digər hal nəzərdə tutulmadığı təqdirdə Abunəçinin törətdiyi hərəkətlərin yetərli sübutu kimi Operatorun (həyata keçirdiyi texniki növündən asılı olmayaraq) apardığı məlumat (uçot) qeydləri çıxış edir.
9.8. İnternet şəbəkəsindən istifadə etdiyi zaman Abunəçiyə vurulmuş zərərə görə, habelə internet şəbəkəsindən əldə etdiyi məlumatlara görə, yaxud Abunəçinin özü və ya onun avadanlığına daxil olmuş üçüncü şəxslər tərəfindən internet şəbəkəsinə verilmiş məlumatlara görə Abunəçinin çəkdiyi xərclər üçün Operator məsuliyyət daşımır.
9.9. Bu Müqaviləni imzalamaqla Abunəçi təsdiq edir ki, quraşdırılmış Abunəçinin avadanlığının istifadəsi ilə əlaqədar olan risklər barədə xəbərdar edilmişdir. Həmin avadanlıqların istismarını həyata keçirən şəxslərə Operator xidmətlərindən istifadə barədə göstərişlərə tam əməl edilməsi zərurəti izah edilmiş və həmin göstərişlərə Abunəçi tərəfindən riayət edilməməsi Operator üçün heç bir məsuliyyət yaratmır. Eyni zamanda tərəflər razılığa gəlirlər ki, hər hansı səbəbdən bu göstərişlərə əməl edilməməsi ilə bağlı hər hansı bir məsuliyyət və ya öhdəlik əmələ gəldiyi halda, buna görə Abunəçi tam şəkildə cavabdehlik daşıyacaqdır.
9.10. Bu Müqavilənin şərtlərinə riayət olunmadığı aşağıdakı hallarda Operator xidmətlərin göstərilməsi üçün məsuliyyət daşımır:
- bu Müqavilə imzalanarkən Abunəçi tərəfindən natamam və ya düzgün olmayan məlumatlar verildikdə;
- Abunəçi tərəfindən Operator şəbəkəsinə uyğun olmayan avadanlıqdan istifadə edildikdə;
- Abunəçi tərəfindən avadanlıq düzgün istifadə edilmədikdə;
- Operatorun təqsiri üzündən baş verməmiş və mənzildə (yaxud digər ünvanda) Operatorun xidmətlərindən istifadəyə maneçilik törədən səbəblər yarandıqda;
- avadanlığın yerləşmə məkanı və şərtləri ilə əlaqədar, yaxud Abunəçinin üçüncü şəxs tərəfindən əldə etdiyi avadanlıqlar istifadə etdiyi zaman kabel şəbəkəsi ilə televiziya siqnalının ötürülməsini çətinləşdirən maneələr yarandıqda;
- təbiət hadisələri (o cümlədən günəş fəallığı, sıx buludluluq, bahar və payız gece-gündüz bərabərliyi) ilə əlaqədar televiziya siqnalının ötürülməsində dəyişikliklər, əyintilər, pozuntular fasilələr meydana gəldikdə;
- Operatorun televiziya proqramlarının yayımı həyata keçirilən normal işi pozulduqda və ya onlar sıradan çıxdıqda;
- kəskin iqlim şəraitində (dolu, güclü qar, leysan yağış, sürətli 12 m/san-dən yüksək külək, 45℃-dən yüksək temperatur) damlarda hündürlük işlərinin aparılması qeyri-mümkün olduqda;
- qanunvericiliklə nəzərdə tutulmuş digər hallarda.

9.12. İnternet və İP televiziya müxtəlif şəbəkələrin könüllü birliyi olduğundan Operator internet şəbəkəsinin ayrı-ayrı seqmentlərinin çatışmamazlığına və düzgün fəaliyyət göstərməməsinə cavabdehlik daşımır. Operator müvəqqəti və ya daimi olaraq internet şəbəkəsi üzərindən mövcud olmayan host və server vasitələri ilə informasiya mübadiləsinə zəmanət vermir.
9.13. Abunəçi internet şəbəkəsindən və İP televiziyasından, o cümlədən kabel televiziyasından qəbul olunmuş materialların istifadəsi, informasiya, reklam, xidmət və mallar ilə əlaqədar olan bütün risk və məsuliyyəti tam olaraq öz üzərinə götürür.
9.14. Televiziya proqramların məzmunu, yayım cədvəlinin dəyişdirilməsi, yaxud proqram paketlərin tərkibindəki bu və ya digər proqramların yayımının dayandırılmasına görə Operator məsuliyyət daşımır;
9.15. Operator internet şəbəkəsində, İP televiziya və kabel televiziya şəbəkəsində istər açıq və ya gizli şəkildə təqdim olunan istənilən mallara, xidmətlərə, məlumata görə heç bir zəmanət vermir və məsuliyyət daşımır. Operator Abunəçinin internet şəbəkəsindən, İP televiziya və kabel televiziya şəbəkəsindən birbaşa və ya dolayı yolla istifadəsi və ya istifadə edə bilməməsi səbəbi ilə ona dəymiş zərər və xərclərə görə məsuliyyət daşımır. İnternet şəbəkəsi, İP televiziya və kabel televiziya şəbəkəsi vasitəsi ilə təqdim olunan istənilən fikrin səmərəliyinin, dəqiqliyin, tamlığının, xidmətlərin və digər məlumatların, malların keyfiyyət və xüsüsiyyətlərinin qiymətləndirməsinə görə cavabdehliyi Abunəçi daşıyır.
9.16. Operator internet şəbəkəsi, İP televiziya və kabel televiziya şəbəkəsi vasitəsi ilə yayımlanan (mövcud olan) ümumi informasiya axınında Abunəçi üçün xoşagəlməz olan materiallara, həmçinin öz növbəsində Abunəçiyə şəxsən toxuna biləcək və ya onunla bağlı olan açıq seksual xarakterli və ya təhqiredici tərkibli məlumatlara nəzarət etmir və buna görə məsuliyyət daşımır.
9.17. Abunəçi giriş üçün öz parametrlərinin təhlükəsizliyinə və onun giriş kanalından icazəsiz istifadə nəticəsində dəymiş zərərə görə tam məsuliyyət daşıyır. Operator Abunəçinin girişindən üçüncü şəxslər tərəfindən icazəsiz olaraq istifadə nəticəsində dəymiş ziyana görə, o cümlədən, üçüncü şəxslər tərəfindən icazəsiz istifadə ilə Abunəçinin hesabına (balansına) və onun səhifəsindən şəxsi statistik məlumatlara daxil olmasına görə məsuliyyət daşımır və kompensasiya ödəmir.
9.18. Operator, ondan asılı olmayan səbəblərə görə - avadanlığın yerləşdiyi zirzəmi və digər yerlərin su ilə dolması, yanğının baş verməsi və digər xarici təsirlərə məruz qalması, elektrik təchizatının kəsilməsi və ya qüsurların olması və digər buna bənzər halların baş verməsi nəticəsində xidmət səviyyəsinin aşağı düşməsi və ya xidmətin dayandırılmasına görə məsuliyyət daşımır və belə halların mövcudluğu keyfiyyətsiz və ya qüsurlu xidmət kimi qiymətləndirilə, habelə bu səbəblər ödənişlərdən azad edə bilməz.
9.19. Abunəçi bu Müqavilədə qeyd edilən öhdəliklərini pozduqda, Operator belə pozuntu nəticəsində dolayı yolla və ya birbaşa dəymiş ziyanın (real zərər, əldən çıxmış fayda, habelə dəbbə pulu) tam məbləğini Abunəçidən tələb etmək hüququna malikdir.

**10. DİGƏR MÜDDƏALAR**

10.1. Hazırkı Müqavilə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq tərtib edilib və Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir. Tərəflər razılığa gəlirlər ki, hazırkı Müqavilədən irəli gələn və Tərəflər arasında müzakirə yolu ilə həll oluna bilməyən mübahisələr Azərbaycan Respublikasının müvafiq məhkəmələri tərəfindən həll olunur.
10.2. Tətbiq olunan Tarif Planına və bu Müqavilənin şərtlərinə uyğun olaraq Abunəçi razılaşır ki, Abunəçi tərəfindən istifadə olunan avadanlığın keyfiyyətindən asılı olaraq təqdim olunan xidmətlərin bütün keyfiyyət, tamlıq və etibarlılıq göstəriciləri, xidmətlərin göstərilməsində mümkün olan kəsilmələr, aravermələr və digər mümkün qüsurlar barədə məlumat ona təmənnasız izah edilib və Abunəçi tərəfindən etiraz edilmədən qəbul edilmişdir. Hazırkı bənddə açıqlanan mümkün qüsurlar nəticəsində Abunəçiyə dəyən hər hansı maddi və ya qeyri maddi ziyana görə Operator heç bir məsuliyyət daşımır.
10.3. Operator tərəfindən bu Müqavilə ilə müəyyən olunan hüquq və öhdəliklərin yerinə yetirilməsinin gecikdirilməsi Operatorun qanuni hüquqlarının məhdudlaşdırılmasına əsas ola bilməz.
10.4. Operator ləğv və ya yenidən təşkil olunduqda və ya Abunəçi vəfat etdikdə, onların bu Müqavilə üzrə öhdəliklərinin icrası hüquqi varislərinə keçir.
10.5. Operator Abunəçinin tələbi əsasında identifikasıya parametrləri (şifrələri) dəyişir. Abunəçi identifikasıya parametrlərini (şifrələrini) yadda saxlamağı, düzgün daxil etməyi, Operatorların təlimatlarına düzgün riayət etməyi, identifikasıya parametrləri (şifrələri) sirrini qorumağı, üçüncü şəxslərə verməməyi öhdəsinə götürür.
10.6. Abunəçi identifikasıya parametlərini (şifrələri) itirdiyi və ya üçünçü şəxslər tərəfindən identifikasıya parametrlərini (şifrələrinin) istifadə edildiyi halda, habelə üçünçü şəxslər tərəfindən idarə olunan internetdə ayrı-ayrı resurslara girişin mümkün olmadığına görə Operator heç bir məsuliyyət daşımır.
10.7. Hörmətli müştəri 10 təqvim günü müddətində xidmətimizdən məmnun qalmadığınız təqdirdə avadanlığı təhvil verib ödənişinizi geri götürə bilərsiz. Əks təqdirdə şirkət heç bir geri ğdəniş etmir.

11. Operatorun məsuliyyəti.
11.1 Operator özündən asılı olmayan səbəblərə görə, o öz üzərinə düşən öhdəlikləri icra edə bilmirsə, buna görə məsuliyyət daşımır.
yoxlama işlər aparılan zaman əgər traffikin ötürülməsinin dayandırılması 1 (bir) gündən artıq olarsa bu zaman Operator xidmətin dayandırıldığı günlər üçün «Abunəçi»yə kompensasiya ödəyir.
«Abunəçi»nin şəxsi komputerində və avadanlığında baş vermiş problem və nasazlığa görə Operator məsuliyyət daşımır
Operator müqavilə üzrə öz öhdəliklərinin tam və lazımınca yerinə yetirilməməsinə görə qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyırlar.
Operator hesablaşmaların səhv icra edilməsinə, həmçinin əsassız olaraq xidmət haqqı hesablanmasına və abunəçinin balansından silinməsinə görə abunəçinin qarşısında məsuliyyət daşıyır.
operator təqsiri səbəbindən dəymiş ziyanın aradan qaldırılması qanunvericiliyə uyğun olaraq operator tərəfindən həyata keçirilir.

12. Abunəçinin məsuliyyəti.
12.1 «Abunəçi» bu Müqaviləyə əsasən göstərilən xidmətə görə ödəməni gecikdirdiyi görə məsuliyyət daşıyır.
Abunəçi müqavilə üzrə öz öhdəliklərinin tam və lazımınca yerinə yetirilməməsinə görə qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyırlar.
Telekommunikasiya şəbəkəsinə abunəçinin təqsiri səbəbindən dəymiş ziyanın dəyəri abunəçi tərəfindən qanunla müəyyən edilmiş qaydada ödənilir.
Abunəçinin xidmətdən istifadəsini qeyri-mümkün edən nasazlıq müraciət qeydə alındığı andan 24 saat ərzində bərpa edilmədikdə, abunəçidən bütün boşdayanma müddəti üçün abunə haqqı tutulmur və beş gündən çox müddətdə xidmət bərpa olunmadıqda operator və ya provayder qanuna uyğun olaraq məsuliyyət daşıyır.

Uşaqlarınızın zərərli informasiyadan qorunması üçün müvafiq tədbirlər (texniki proqram və ya avadanlıq vasitələri) görərək təhlükəsiz istifadə imkanlarından yararlanmaq istərdinizmi?

**Bəli** ☐ **Xeyr** ☐

Abunəçi barəsindəki məlumatların sorğu məlumat mənbələrində göstərilməsinə etiraz:

**Edir** ☐ **Etmir** ☐

EUROSEL
telecommunication company

# Abunə müqaviləsi

Az1078, C. Məmmədquluzadə küç., ev 85, məhəllə 254
Tel.: (+994 12) 310 00 77, Tel.: (+994 12) 921 (qaynar xətt)
Mob.: (+994 77) 270 09 21
www.eurosel.az, facebook.com/eurosel, E-poçt: mxm@eurosel.az

Müqavilə № : ☐☐☐☐☐☐☐☐ | Müqavilə tarixi: **20** - ay - gün | ☐ əhali ☐ qeyri-əhali

adı, soyadı, ata adı və ya təşkilatın tam adı, təşkilati-hüquqi forması ______ | əlaqə telefonu ______

Doğulduğu tarix: | Doğulduğu yer:
Şəxsiyyəti təsdiq edən sənəd: ☐ Ş/V ☐ Digər | Seriyası: | Nömrəsi:
Sənədi verən orqan: | Verilmə tarixi:
Cinsi: ☐ kişi ☐ qadın | ☐ vətəndaş ☐ əcnəbi ☐ təşkilat

Qeydiyyat ünvanı: ______ şəhər və ya rayon / qəsəbə / kənd | ______ küçə / kvartal | ______ ev /mənzil

İNDEKS :

Xidmət verilən ünvan: ______ şəhər və ya rayon / qəsəbə / kənd | ______ küçə / kvartal | ______ ev /mənzil

Blok ______ | Mərtəbə ______

**AYLIQ XİDMƏT ÖDƏNİŞLƏRİ:**

| Seçilmiş aylıq abunə xidmətləri | Abunə haqqı |
|---|---|
| | |
| | |
| | |
| **CƏMİ AYLIQ ABUNƏ HAQQI (A)** | ₼ |

☐ Router avadanlığı şirkətə məxsusdur SN: ______

☐ STB avadanlığı şirkətə məxsusdur SN: ______

☐ Router avadanlığı abonentə məxsusdur SN: ______

Müqaviləni təqdim edən Eurosel MMC-nin məsul əməkdaşı ______
ad, soyad, imza tarix

Mən bu Müqavilə ilə (4 vərəq) bağlı sifarişin və Abunəçi haqqında daxil edilmiş məlumatların doğruluğunu imzamla təsdiqləyir və yazdığım məlumatlarda olan hər hansı yalnışlığa görə məsuliyyətimi qəbul edirəm.

möhür yeri

Müqavilənin şərtləri ilə tanış oldum ______
ABUNƏÇİ imza

Bu Abunə Müqaviləsi (bundan sonra "Müqavilə") yuxarıda qeyd edilən tarixdə Azərbaycan Respublikasında, onun qanunvericiliyinə müvafiq olaraq təsis edilmiş və fəaliyyət göstərən, bundan sonra "Operator" adlanacaq Eurosel MMC ilə yuxarıda adı qeyd edilən və bundan sonra "Abunəçi" adlanacaq fiziki və ya hüquqi şəxs (bundan sonra ayrılıqda "Tərəf", birlikdə isə "Tərəflər" adlanacaqlar) arasında aşağıdakılar barədə bağlanmışdır.

**1. ÜMUMİ MÜDDƏALAR**

1.1. Bu Müqavilədə nəzərdə tutulmuş şərtlər Operatorun təmin etdiyi telekommunikasiya şəbəkəsinə qoşulan bütün abunəçilərinə tətbiq olunur. Bu Müqavilənin imzalandığı tarixdə qüvvədə olan Operatorun təqdim etdiyi xidmətlərin göstərilməsi şərtləri Operator tərəfindən birtərəfli qaydada dəyişdirilə bilər. Operator tərəfindən göstərilən xidmətlər Azərbaycan Respublikasının qanunlarına uyğun göstərilir.
1.2. Abunəçi bu Müqaviləni imzalamaqla bu Müqavilənin bütün şərtlərini qəbul etdiyini təsdiq edir.

**2. ƏSAS ANLAYIŞLAR, MÜQAVİLƏNİN MƏQSƏDİ VƏ MÖVZUSU**

**İnternet** - müxtəlif qurğuları birləşdirən qarşılıqlı bağlanmış kompyuter şəbəkələrinin qlobal sistemi və ya internet şəbəkələrin şəbəkəsi;
**İP televiziya (İPTV)** - formalaşdırılmış televiziya siqnallarının internet şəbəkəsi ilə yayımı;
**Kabel televiziyası** - formalaşdırılmış televiziya siqnallarını efir və kabel xəttindən birlikdə istifadə etməklə ötürən kabel televiziya şəbəkəsi;
**Xidmət** - telekommunikasiya şəbəkəsi vasitəsi ilə təqdim olunan və vaxtaşırı olaraq, çeşidi və tərkibi Operator tərəfindən Abunəçi qarşısında heç bir məsuliyyət daşımadan dəyişdirilə bilən telekommunikasiya xidmətləri növlərindən (internet, İP televiziya, kabel televizyası və s.) hər hansı biri yaxud bir neçəsidir;
**İnternet şəbəkəsi** - müəyyən ərazidə Abunəçiyə Rabitə xidmətinin və Əlavə Xidmətlərin təqdim olunmasını təmin edən Operatorun istismarında olan texnoloji avadanlıq toplusu;
**Kabel televiziyası şəbəkəsi** - müəyyən ərazidə Abunəçiyə kabel və ya efir kabel vasitəsilə kabel televiziyası xidmətini göstərmək imkanı olan texnoloji sistem;
**Operator şəbəkəsi** - müəyyən ərazidə Operatorun xidmətlərini təşkil edən son avadanlıqlarından Abunəçinin mənzilinə qədər olan naqilli və yaxud naqilsiz şəbəkə toplusu;
**Tarif Planı** - Operatorun xidmətlərinin bir və ya bir neçəsindən istifadə etmək üçün Abunəçiyə təklif edilən, Operator tərəfindən müəyyən edilən, dəyişdirilə və ya ləğv edilə bilən fərqli qiymət şərtləri toplusu;
**Proqram paketi** - Operatorun kabel televiziyası abonentlərinə təklif etdiyi müxtəlif televiziya və radio proqramlarının məcmusu;
**Abunə haqqı -** xidmət növlərindən istifadəyə görə aylıq ödəməli olan və dəyəri Operator tərəfindən mövcud qanunvericiliyə uyğun olaraq öz mülahizəsinə əsasən müəyyənləşdirilərək Operatorun Tarif Planında göstərilən abunə haqqı və digər ödəniş məbləğ(lər)i;
**Qoşulma haqqı -** Operatorun xidmətlərinin təşkili üçün Operator şəbəkəsinə qoşulmada yaranacaq xərcləri təmin edəcək Abunəçi ödəməli olduğu və dəyəri Operator tərəfindən öz mülahizəsinə əsasən müəyyənləşdirilərək Operatorun Tarif Planında göstərilən birdəfəlik xidmət haqqı və digər əlavə ödəniş məbləğ(lər)i;
**Hesab (balans)** - Abunəçinin Operatora ödədiyi pul məbləğlərinin mədaxili və məxarici üzrə hesabı;
**Ödəniş vaxtı -** Abunəçinin Operatora ödəməli olan pul məbləğinin sön ödəmə tarixi;
**Abunəçinin avadanlığı** - Operatorun şəbəkəsinə Abunəçinin qoşulmasını təmin edən avadanlıq və ya qurğu;
**Qaydalar** - Operator tərəfindən birtərəfli qaydada müəyyən edilən və vaxtaşırı dəyişdirilə bilən, avadanlıqların və telekomunikasiya şəbəkəsinin istismarı ilə əlaqədar olan, həmçinin konkret xidmət və ya bir neçə xidmətlər məcmusunu özündə əks etdirən Abunəçiyə aid qaydalar və təlimatlar;
**Müştəri xidmətləri mərkəzi (MXM)** - Abunəçilərə müxtəlif kanallar (012)310 55 55 telefon nömrəsi, mxm@eurosel.az e-poçt ünvanı, mxm@eurosel.az veb səhifə və s.) üzrə əlaqə yaratmaq, onların müraciətlərinin, statuslarının, balanslarının idarə olunması ilə bağlı hərəkət etmək, Abunəçilərə məlumat-məsləhət xidmətlərini göstərmək, sorğular keçirmək və Abunəçilərin xidməti ilə bağlı digər fəaliyyəti göstərmək imkanını verən Operator tərəfindən təqdim edilən xidmət;
**Veb-səhifə -** Operatora məxsus olan mxm@eurosel.az domeni;
**İnformasiya kanalı** - Operatora məxsus efir-kabel televiziyası şəbəkəsində ayrılmış xüsusi kanallar.

0158 45x32 100 qr ofset 1000 list ARXA

**2.1. Müqavilənin məqsədi və mövzusu**

Operator, istismarında olan telekommunikasiya kanalları vasitəsilə abunəçiyə internetin və İP televiziyanın təmin edilməsi, həmçinin kabel televiziya şəbəkəsi üzərindən efir-kabel televiziyanın təqdim edilməsi ilə bağlı telekommunikasiya xidmətlərini həyata keçirmək öhdəliyini öz üzərinə götürür. TV xidmətləri, GSP şirkətinə məxsus 15.12.2022-ci il tarixli UPO-007 nömrəli lisenziya əsasında göstərilir. Eurosel MMC, GSP MMC tərəfindən təqdim edilən lisenziyanın şərtlərinə uyğun olaraq yalnız agent qismində bu xidməti təqdim edir. Müvafiq hüquq və öhdəliklər GSP-nin təqdim etdiyi lisenziya çərçivəsində tənzimlənir. Abunəçi isə, Operator tərəfindən təqdim edilən xidmətlərin müqabilində Müqavilədə göstərilən qaydada ödənişləri həyata keçirmək öhdəliyini daşıyır.

2.1.2. İnternet xidməti üzrə abunə xəttinin (məlumatların ötürülməsi şəbəkəsində rabitə xəttinin ötürmə zolağı) standart xarakteristikaları nəzərə alınmaqla təşkil olunan kanalda texniki sürət "Ethernet" stansiya avadanlığı üzərində Operator tərəfindən təyin olunur və Tarif Planından asılı olaraq maksimum 100 mbit/san qədər təşkil edir. İstifadə ediləcək aylıq trafikin həcminə məhdudiyyət tətbiq edilmir. Lakin Abunəçi tərəfindən istifadə edilən trafikin həcmi əhəmiyyətli dərəcədə artdıqda, Operator istifadə ediləcək trafikin sürətini Abunəçiyə qabaqcadan məlumat verməklə aşağı salmaq hüququnu özündə saxlayır. Real texniki sürət və rabitə xidmətlərinin digər texniki göstəriciləri istifadə olunan məlumatların ötürülməsi protokollarından, məlumatların ötürülməsi şəbəkəsinin elementlərinin vəziyyətindən (abunə xətti, digər rabitə operatorlarının məlumatların ötürülməsi şəbəkələri, eləcə də Abunəçinin avadanlığı məlumatların mübadiləsini apardığı serverlərdən və digər şəbəkə avadanlığından) asılıdır və buna görə də Operator Abunəçiyə rabitə xidmətləri təqdim olunan müddət ərzində təşkil olunan kanal üzrə məlumatların mübadilə sürətinin dəyişməzliyinə və digər texniki göstəricilərə əməl olunacağına zəmanət vermir.

2.1.3.Tərəflər razılaşırlar ki, Operator xidmətlərinin qiymətləri Operatorun Tarif Planına uyğun müəyyən edilir. Tarif planı Operator tərəfindən birtərəfli qaydada,müvafiq hallarda xidmətlərin xüsusiyyətləri, müəyyən müddətləri, bayram və əhəmiyyətli tarixləri, o cümlədən müəyyən qrup və ya müxtəlif kateqoriya abunəçiləri əhatə edən kampaniya, aksiya və sair tədbirlər ilə əlaqədar ən azı 10 (on) təqvim günü əvvəl, Abunəçilər üçün daha əlverişli, güzəştli və sərfəli vəziyyət yaradılan zaman isə öz mülahizəsinə əsasən dərhal və ya istənilən an kütləvi informasiya vasitələri (KİV) ilə, Operatorun veb-səhifəsi vasitəsilə və digər informasiya kanalları vasitəsilə bu Müqavilədə müəyyən edilmiş qaydada xəbərdar etməklə, mövcud qanunvericiliyə uyğun olaraq, sərbəst şəkildə dəyişdirilə bilər.

## 3. TƏRƏFLƏRIN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

**3.1. Abunəçinin hüquqları**

3.1.1. Abunəçi istədiyi zaman operator tərəfindən istifadə müddətinə verilmiş avadanlığın tam ödənişini edərək onu özününküləşdirə bilər.

3.1.2. Operatordan bu Müqavilədə müəyyən olunmuş öhdəliklərin yerinə yetirilməsini tələb etmək.

3.1.3. Tətbiq olunan Tarif Planı, proqram paketi və qaydalara uyğun olaraq Müqavilə qüvvədə olduğu müddət ərzində Operator tərəfindən göstərilən xidmətləri istifadə etmək, onlar barədə məsləhətlər almaq, həmin xidmətləri dəyişdirmək, onlara əlavə etmək, və ya xidmətlərdən imtina etmək.

3.1.4. Xidmətlərin bir aydan az olmayaraq müddətə dayandırılması barədə, həmin ayların müvafiq Tarif Planı üzrə ödəniləcəyi təminatı ilə, Operatora yazılı şəkildə müraciət etmək.

3.1.5. Yeni təqvim ayına ən azı 5 (beş) iş günü qalmış Operatora yazılı şəkildə müraciət etməklə yeni təqvim ayının əvvəlindən Operatorun qüvvədə olan Tarif Planına və proqram paketinə uyğun olaraq yeni Tarif Planını və ya proqram paketini seçmək.

3.1.6. Xidmətlərə qoşulduğu zaman müəyyən edilmiş xidmətlərdən bu Müqavilə üzrə gündəlik (sutka ərzində) istifadə etmək.

3.1.7. Bu Müqaviləyə xitam vermək niyyətində olduğu halda bu Müqavilənin 7.7-ci bəndində nəzərdə tutulan qaydada Operatora şifahi və ya yazılı şəkildə müraciət etməklə birtərəfli qaydada bu Müqaviləyə xitam vermək.

3.1.8. İstifadə etdiyi kabel televiziyası xidmətləri üzrə proqram paketinin dəyişişdirilməsi üçün Operatora yazılı müraciət etmək. Abunəçi təqvim ayının gedişi vaxtı abunəsini artırmaq istəyirsə, bu barədə müraciət etdiyi tarixdən avtomatik olaraq abunəsi artırılır və həmin təqvim ayının abunə haqqı artırılmış tariflə hesablanır. Abunə azalmaya doğru dəyişdirildiyi zaman, yaxud Abunəçi növbəti təqvim ayından etibarən abunəsini artırmaq istəyirsə, cari təqvim ayınının bitməsinə ən azı 3 (üç) gün qalanadək Operator tərəfindən qəbul edilmiş müraciətlər icraya götürülür. Göstərilən müddətdən gec daxil olmuş müraciətlərə cari təqvim ayında baxılmır. Xidmətdə dəyişikliklər növbəti təqvim ayından başlayaraq həyata keçirilir.

3.1.9. Qeyri-qanuni və ya bu Müqaviləyə zidd əldə olunan hüquqları Abunəçi həyata keçirə bilməz. Belə hallar yarandıqda, xidmətlərə Müqavilə və (və yaxud) Operatorun müəyyən etdiyi qaydalardan kənar qoşulmalar ləğv edilir. Həmçinin, hər hansı səbəbdən Müqavilə yaxud da Operatorun müəyyən etdiyi qaydalardan kənar əldə edilən məbləğlər Operator tərəfindən Abunəçi hesabından (balansından) silinir.

**3.2. Abunəçinin vəzifələri**

3.2.1 Bu Müqaviləni imzaladığı halda, Müqavilənin bütün müddəalarına, istifadə qaydalarına riayət etmək öhdəliyini qeyri-şərtsiz qəbul etmək, habelə Operatorun xidmətlərindən istifadə zamanı qanunvericiliyin və bu Müqavilənin müddəalarına və istifadə qaydalarına riayət etmək.

3.2.2. Operatorun Tarif Planına əsasən bu Müqavilədə göstərilən vaxt ərzində və məbləğdə göstərilən xidmətlər üçün nəzərdə tutulan məbləği Operatora ödəmək.

3.2.3. Müqavilənin titul vərəqində əks edilmiş Abunəçi barədə məlumatlarda baş vermiş mühüm dəyişikliklər barədə Operatoru dərhal, lakin hər bir halda 5 (beş) iş günündən gec olmayaraq yazılı sürətdə poçt, faks və ya elektron poçt vasitəsilə məlumatlandırmaq.

3.2.4. Operator tərəfindən xidmətlərin tərkibinin, Tarif Planının, və ya proqram paketlərinin dəyişdirilməsi barədə məlumatı aldıqdan sonra, dəyişikliklərlə razı olmadığı təqdirdə, həmin dəyişikliklərin tətbiqindən ən az 30 (otuz) gün öncə Operatora yazılı və ya şifahi şəkildə müraciət etməklə bu Müqaviləyə xitam vermək. Dəyişikliklərlə əlaqədar bu Müqaviləyə xitam verilməsi barədə Abunəçidən müraciətin daxil olmaması Abunəçinin həmin dəyişikliklərə razılığı kimi qiymətləndirilir.

3.2.5. Quraşdırma zamanı Abunəçinin mənzili daxilində texniki quraşdırma qrupuna lazımı şəraiti yaratmaq və ehtiyac olduğu halda inzibati dəstək vermək, yəni zirzəmilərə, çardaqlara, qarajlara, şaxtalara və s. daxil olmaq üçün müvafiq icazələri almaq və tələb olunan yerlərə girişin təmin olunması üçün lazımı digər hərəkətləri etmək.

3.2.6. Xidmətlərdən üçüncü şəxslər tərəfindən istifadə edildikdə, belə istifadənin Müqavilənin şərtləri daxilində həyata keçirilməsinə zəmanət vermək. Abunəçi həmin üçüncü şəxslərin hərəkətlərinə görə Azərbaycan Respublikasının qanunvericiliyinə və hazırkı Müqaviləyə əsasən məsuliyyət daşıyır.

3.2.7. Xidmətlərdən və xidmətlərlə əlaqədar olan digər avadanlıq və vasitələrdən, kabel televizya xidməti üzrə 2 (iki) və ya ondan artıq olan sayda televizorlarda görüntünü əks etdirən avadanlıqlarından istifadə edilməməsini, üçüncü şəxslərə ikinci əldən (təkrarən) satılmamasını təmin etmək, kommersiya məqsədi və ya şəxsi istifadədən başqa digər istənilən fəaliyyət üçün istifadə edilməməsi və ya bu məqsədlərlə başqasına istifadəyə və ya icarəyə verilməməsini təmin etmək.

3.2.8. Abunəçinin səhlənkarlığı, birbaşa və ya dolayı təqsiri ucbatından, kabel və quraşdırılmış avadanlıqla kobud rəftarı nəticəsində (RJ45, F konnektor başlığının qırılması, CAT5, CAT6, RJ6 kabelinin və RJ45 yuvasının zədələnməsi və s. hallar) və Abunəçiyə aid "Wi-Fi" və "router" avadanlığı, "İPTV STB" avadanlığı, kompyuter və proqram təminatında (əməliyyat sistemi, anti-virus və s.) yaranmış texniki problemlərin və ya zədələnmələrin həll edilməsi üçün texniki qrupun evə çağırılmasının yekun dəyərini Operatorun həmin tarixdə qüvvədə olan qiymət cədvəlinə əsasən ödəmək. Qiymət cədvəli barədə məlumatı Operatorun veb-səhifəsindən və ya MXM vasitəsi ilə əldə etmək olar.

3.2.9. Bu Müqaviləyə hər hansı bir səbəbdən xitam verildikdə Abunəçiyə xidmət vermək üçün ixtiyarına verilmiş, Operatorun mülkiyyəti hesab olunan hər bir avadanlığı 30 (otuz) gün ərzində Operatora qaytarmaq. Göstərilən müddət ərzində hər hansı bir avadanlıq qaytarılmazsa, və ya Abunəçi tərəfindən avadanlığın itirildiyi məlum olarsa, və ya zədələndiyi məlum olarsa, Abunəçi itirilmiş və ya zədələnmiş hər bir avadanlığ üçün 200 (iki yüz) AZN məbləğində cəriməni və Operatora dəymiş zərərlə bağlı digər xərcləri ödəməlidir.

3.2.10. Tərtib etdiyi müraciətləri, məlumatları, bildirişləri və iddiaları Operatora xəbərnaməli bildirişlə yazılı formada çatdırmaq.

3.2.11. Xidmətlər üzrə operator şəbəkəsinə qoşulmaq üçün nəzərdə tutulan müvafiq avadanlığı təqdim etmək.

3.2.12. Zəruri avans köçürmələrini Operatorun hesablaşma hesabına köçürmək və ya nağd şəkildə ödəmək;

3.2.13. İxtiyarına verilmiş abunəçi avadanlığını və rabitə xəttini saz halda saxlamaq və bu avadanlığın istismar qaydalarına riayət etmək.

3.2.14. Abunəçi avadanlığının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı zərərli proqram təminatından qorumaq məqsədi ilə tədbirləri və nəzarəti həyata keçirmək.

3.2.15. Operator şəbəkəsinə müdaxilə edən və ya mənfi təsir göstərə bilən qurğulardan istifadə etməmək, müvafiq qaydalara uyğun gəlməyən avadanlığı Operator şəbəkəsinə qoşmamaq.

3.2.16. Şəbəkə konfiqurasiyasının tənzimlənməsi üzrə operator şəbəkədə işlərin aparılması məqsədi ilə Operatorun Sistem İnzibatçısının göstərişlərini şərtsiz yerinə yetirmək və onları Operatorla razılaşdırmadan dəyişdirməmək.

3.2.17. Operatorun xidmətlərindən istifadə edərək reklam, spam və ya digər oxşar məzmunlu məktubları internet istifadəçilərinin aşkar razılığı olmadan onlara göndərməmək.

3.2.18. Operator xidmətləri vasitəsi ilə internet resurslarından (o cümlədən, kütləvi göndərişlərin siyahısı, telekonfranslar, veb-forumlar, çatlar və s.) istifadə qaydalarının pozulması yolu ilə istifadə etməmək, habelə internetə qoşulmuş hər hansı bir kompyuterə qeyri-qanuni şəkildə daxıl olmaq üçün (o cümlədən internetə qoşulmuş kompyuterlərin portlarının "skan" edilməsi) Operatorun xidmətlərindən istifadə etməmək;

3.2.19. Operatorun digər Abunəçilərinin və internet şəbəkəsinin digər istifadəçilərinin işinə maneçilik yaratmamaq.

3.2.20. Operatorun xidmətlərindən internet şəbəkəsinin resurslarında təhdidedici, alçaldıcı və əxlaqsız, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olan digər informasiyalara istinadlar (link) yerləşdirməklə istifadə etməmək.

3.2.21. Müəlliflik və əlaqəli hüquqlara dair qanunvericiliyin tələblərinə zidd olaraq müəlliflik və əlaqəli hüququn obyeklərinin, habelə Azərbaycan Respublikasının ərazisində qüvvədə olan heyəti xarakterli aktların və saziş normalarının yayılması üçün Operatorun xidmətlərindən istifadə etməmək.

3.2.22. Azərbaycan Respublikasının qanunvericiliyi ilə zərərli hesab edilən, o cümlədən sanksiyalaşdırılmış modifikasiya və (və ya) istifadə olunmasına gətirib çıxara bilən kompyuter proqram təminatlarını yaymamaq və onlardan istifadə etməmək.

3.2.23. Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olan malların (işlərin, xidmətlərin) reklamı məqsədi ilə Operatorun xidmətlərindən istifadə etməmək.

3.2.24. Üçüncü şəxslər tərəfindən ədalətsiz və vicdansız istifadə edilən özünün resurslarını tənzimləmək və bu resurslardan istifadə edilməsinin qarşısının alınması ilə bağlı tədbirləri həyata keçirmək.

3.2.25. Yalnız sertifikatlaşdırılmış rabitə avadanlığından və lisenziyalaşdırılmış proqram təminatından istifadə etmək.

3.2.26. Operator şəbəkəsində, o cümlədən rabitə xəttində baş vermiş və Abunəçiyə məlum olan bütün pozuntular barədə Operatora dərhal məlumat vermək.

3.2.27. Kabel televiziyası xidmətləri üzrə abunə haqqını Operatorun nümayəndəsi ilə razılaşdırılmış günə kimi ödəmək. Hər hansı səbəb üzündən Operatorun nümayəndəsi razılaşdırılmış günə kimi Abunəçinin ünvanına gəlməzsə, bu halda Abunəçi abunə haqqını Operatorun ofislərində, xidmət göstərilən müəyyən ərazidə təyin edilən ofisdə, inkassatorlarda və ya digər vasitələrlə ödəmək məsuliyyətindən azad edilmir.

3.2.28. Kabel televiziyası və internet xidmətləri üzrə yaranmış problemlərin vaxtında aradan qaldırılması məqsədi ilə Operatora məlumat vermək və bu problemləri yaradan səbəblərin aradan qaldırılmasında Operatorun texniki işçi heyətinə yardım göstərmək.

3.2.29. Kabel televiziyası xidmətlərindən istifadə etmək, xidmət üzrə proqram paketini dəyişmək, xidmət üzrə zəruri məsləhətlər almaq, bu Müqavilədə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək məqsədilə Operatora bu Müqavilənin nömrəsi barədə məlumatları təqdim etmək.

3.2.30. Kabel televiziyası və internet xidmətləri üzrə kabel plombunu qırdıqda və ya kabel xəttinə qanunsuz, müdaxilə etdikdə bu Müqavilənin 9.6-cı bəndində göstərilən qaydada 200 AZN məbləğində cərimə ödəmək.

3.2.31. Bu Müqavilə ilə üzərinə düşən digər vəzifələri yerinə yetirmək.

3.3. **Operator aşağıdakı hüquqlara malikdir:**

3.3.1. Abunəçidən onun bu Müqavilə üzrə öhdəliklərinin tam, vicdanla və tələblərə uyğun surətdə icra edilməsini tələb etmək.

3.3.2. Xidmət ilə əlaqədar Tarif Planını, qaydaları, şərtləri və proqram paketlərini birtərəfli qaydada dayişdirmək, habelə Abunəçiyə göstərdiyi xidmətlərlə əlaqədar Abunəçinin bu Müqavilədə təsbit olunan hüquq və maraqlarına xələl gətirməyən qərarları barədə Abunəçini əvvəlcədən xəbərdar etməmək.

3.3.3. Abunəçinin Müqavilə ilə nəzərdə tutulmuş hüquq və öhdəliklərinə təsir etməyən Operatorun istənilən fəaliyyəti barədə Abunəçiyə məlumat verməmək.

3.3.4. Operator təmin etdiyi xidmətlərin və (və yaxud) operator şəbəkəsinin texniki göstəricilərində dəyişiklik etməkdə sərbəstdir. Operator şəbəkəsinə hər hansı bir dəyişiklik nəticəsində yeni xidmətlərdən istifadə etmək üçün Abunəçi avadanlığını dəyişməli və ya ona hər hansı bir dəyişiklik etməli olarsa, o bununla əlaqədar Operatordan hər hansı bir təzminat almaq hüququna malik olmur.

3.3.5. Operator xidmətlərinin istifadəsi ilə bağlı ödənilməmiş borcu olan Abunəçi ilə əlavə hər hansı bir digər xidmət üzrə müqavilə bağlamaqdan imtina etmək.

3.3.6. Abunəçi tərəfindən istifadə edilən internet trafikinin həcmi əhəmiyyətli dərəcədə artdıqda, istifadə ediləcək trafikin sürətini Abunəçiyə qabaqcadan məlumat verməklə aşağı salmaq.

3.3.7. Abunəçi avadanlığının əvəzləndiyi zaman (onun itirilməsi və ya sıradan çıxması halında) Abunəçinin ödəniş etdiyi xidmətlərin göstərilməsini dayandırmamaq.

3.3.8. Operator xidmətlərinin göstərilməsinə görə birtərəfli qaydada Tarif Planını dəyişmək.

3.3.9. Abunəçiyə göstərilən internet xidmətləri dayandırmaqla hər bir təqvim ayında 20 (iyirmi) saatdan və həftədə 5 (beş) saatdan çox olmamaq şərti ilə profilaktik işləri həyata keçirmək.

3.3.10. Abunəçinin təqsiri üzündən xidmətlərin göstərilməsi dayandırıldıqda, habelə bu Müqavilənin 8.2-ci bəndində qeyd edilən hallarda göstərilmiş xidmətlərin Tarif Planı üzrə abunə haqqını almaq.

3.3.11. Abunəçi üçün quraşdırılan avadanlığın normal fəaliyyətini təmin etmək məqsədilə Abunəçinin avadanlıqlarının konfiqurasiyasına zəruri dəyişiklik etmək.

3.3.12. Özü və ya bu məqsədlər üçün cəlb edilmiş təşkilatlar tərəfindən aparılmış sorğuların nəticələri əsasında İP və kabel televiziyası üzrə xidmətlərin tərkibini dəyişdirmək, proqram paketlərin tərkibindən bu və ya digər televiziya proqramlarını çıxarmaq, o cümlədən xidmətlərin göstərilməsini tamamilə və ya qismən dayandırmaq.

3.3.13. İP və ya kabel televiziya xidmətlərində hər hansı bir kanalda Azərbaycan Respublikasının müstəqilliyinə və ya ərazi bütövlüyünə qarşı yönəlmiş verilişlər yayımlandıqda, Abunəçiyə əvvəlcədən məlumat verilmədən bu cür verilişləri (kanalları) digər kanalla əvəz etmək və ya yayımlanmanı dayandırmaq.

3.3.14. Operator şəbəkəsinə uyğun avadanlıqları və ləvazimatları, o cümlədən digər xidmətləri Abunəçiyə satış məqsədilə təklif etmək, öz mülahizəsinə əsasən müəyyənləşdirdiyi satış dəyərləri və təklifi qəbul olunduğu təqdirdə Abunəçidən həmin dəyərin qarşılığında ödəniş tələb etmək.

3.3.15. İP və ya kabel televiziya xidmətləri üzrə Abunəçiyə əvvəlcədən məlumat verilmədən həftədə 3 (üç) saata qədər və ya ayda 12 (on iki) saata qədər profilaktik təmir və digər işlərin aparılması məqsədi ilə kanalların yayımını tamamilə və ya qismən dayandırmaq.

3.3.16. Hazırkı Müqavilə üzrə Xidmətlərin göstərilməsinə vaxtından əvvəl xitam verilməsi nəticəsində Operatora vurulan zərərin ödənilməsini Abunəçidən tələb etmək.

3.3.17. Bu Müqavilə ilə müəyyən olunan hallarda Müqavilə üzrə öhdəliklərinin icra olunmasını dayandırmaq və ya Müqaviləyə birtərəfli qaydada xitam vermək.

**3.4. Operator aşağıdakı vəzifələrə malikdir:**

3.4.1.Abunəçinin müraciəti əsasında uşaqların zərərli informasiyadan qorunması üçün internet informasiya ehtiyatlarından təhlükəsiz istifadə imkanlarını "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla təmin etmək.

3.4.2.Telekommunikasiya sahəsində qanunvericiliyə uyğun olaraq xidmət göstərmək.

Fors-major və fövqəladə hallar istisna olmaqla, hər hansı səbəbdən xidmətlər məhdudlaşdırıla və ya dayandırılarsa abunəçiyə operator tərəfindən əvvəlcədən məlumat vermək.

3.4.3. Müqavilənin şərtlərinə uyğun olaraq Abunəçiyə xidmətlərini göstərmək, habelə Abunəçinin seçdiyi Tarif Planı və (və yaxud) proqram paketi (hazırkı Müqavilə imzalanan tarixə qüvvədə olan Tariflər Planı və proqram paketləri) üzrə nəzərdə tutulmuş ilkin ödəniş məbləğinin ödənişi həyata keçirildikdən sonra Abunəçinin yaşayış və ya olduğu yer üzrə onun mənzilinə qədər naqilli və yaxud naqilsiz şəbəkə infrastrukturunu quraşdırmaq, aktivləşdirmək, yoxlamaq və Abunəçini xidmətləri ilə təmin etmək.

3.4.4. Abunəçinin müraciəti əsasında ona Operatorun xidmətləri, onlardan istifadə qaydaları, Tarif Planı və proqram paketləri haqqında ətraflı məlumat vermək.

3.4.5. Abunəçinin müraciəti əsasında texniki problemlərini vaxtında (qeyri-iş günləri istisna olmaqla) aradan qaldırmaq. Əgər texniki problem barədə müraciətin daxil olması qeyri-iş günlərinə təsadüf edərsə, mövcud imkanları daxilində növbətçi texniki qrupunu texniki problemin həll edilməsi üçün yönəltmək.

3.4.6. Onun tərəfindən Abunəçiyə təchiz olunmuş və ya satılmış avadanlıqlara istehsalçının verdiyi zəmanət müddəti daxilində zəmanət vermək, habelə Abunəçinin mənzilinə qədər quraşdırılmış Operator şəbəkəsinə 3 (üç) ay müddətində zəmanət vermək.

3.4.7. Xidmətlərin keyfiyyətinə təminat vermək.

3.4.8. Tarif Planına dəyişiklik edildiyi halda, yeni Tarif Planının qüvvəyə minməsindən ən azı 30 (otuz) təqvim günü əvvəl yeni Tarif Planı barədə məlumatı özünün veb-saytında, informasiya kanalında və müəyyən ərazi üzrə xidmət göstərdiyi ərazilərdə ayrılmış lövhələrdə dərc etmək.

3.4.9. Təyin edilmiş Tarif Planı, proqram paketlərinin tərkibi, xidmətlərin müyəssərliliyinin təmin edilməsi üçün tövsiyə olunmuş avadanlığın sertifikatlaşdırılması, xidmətlərin göstərilməsi şərtlərinin dəyişdirilməsi barədə aşağıdakı informasiya və digər məlumatları Abunəçiyə çatdırmaq:

- bu Müqavilənin 1 (bir) nüsxəsini;
- Görülmüş işləri, Abunəçi tərəfindən seçilmiş Tarif Planı və proqram paketini əks etdirən hər iki tərəfdən imzalanmış, bu Müqavilənin tərkib hissəsi hesab edilən Təhvil-Təslim aktının 1 (bir) nüsxəsini;
- Operatorun reklam və məlumat materiallarını;
- Operatorun əlaqə telefonları və ünvanlarını, o cümlədən xidmət göstərdiyi ərazi üzrə məsul şəxsin əlaqə telefonlarını;

3.4.10. Xidmətlərin göstərilməsi anından başlayaraq göstərilmiş hər xidmət növü üzrə onların uçotlarını aparmaq.

3.4.11. Bu Müqavilə ilə üzərinə düşən digər vəzifələri yerinə yetirmək.

## 4. XİDMƏTLƏRİN DƏYƏRİ VƏ ÖDƏNİŞ ŞƏRTLƏRİ

4.1. Xidmətin dəyəri xidmətin icra olunma tarixində qüvvədə olan Tarif Planına əsasən Azərbaycan Manatı ilə müəyyən olunur.

4.2. Bu Müqaviləyə əsasən göstərilən xidmətlər müqabilində hesablanan abunə haqqı və digər ödənişlər Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq Əlavə Dəyər Vergisi (ƏDV) tətbiq etməklə müəyyənləşir. Operator tərəfindən təklif olunan Tarif Planındakı qiymətlərin cəminə ƏDV daxildir və ödənilməsi məcburidir.

4.3. Xidmətlərin dəyəri müvafiq xidmət üzrə Abunəçinin avadanlığının operatorun şəbəkəsinə qoşulduğu və aktivləşdirildiyi, habelə bununla bağlı xüsusi aktın tərtib edilib hər iki tərəfin imzaladığı gündən sonra hesablanmağa başlanacaqdır.

4.4. Abunəçi kampaniya şərtləri çərçivəsində Operator şəbəkəsinə qoşulubsa həmin kampaniya müddəti ərzində tətbiq edilən güzəştli Tarif Planına uyğun ödənişlərini həyata keçirir, lakin kampaniya müddəti bitdikdən sonra Abunəçi ödənişlərini mövcud Tarif Planına uyğun həyata keçirir.

4.5. Abunəçi Tarif Planında müəyyən edilən qiymətlərin Operator tərəfindən birtərəfli qaydada qaldırılması ilə razı olmadığı halda bu barədə Operatora məlumat verməli və bu Müqavilənin 7.7-cі bəndində müəyyən edilmiş qaydada xitam verilməlidir.

4.6. Abunəçi xidmətin dəyərini qüvvədə olan Tarif Planının şərtlərində nəzərdə tutulmuş qaydada 100% (yüz faiz) həcmində qabaqcadan ödəməlidir.

4.7. Tərəflər arasında avans ödəniş metodu tətbiq edilir. Abunəçinin hesabının (balansının) sıfra bərabər olduğu halda və ya Abunəçinin hesabındakı (balansındakı) pul vəsaiti xidmətlərin ödənişi üçün kifayət etmədikdə, Operator xidmətlərin göstərilməsini dayandırır. Xidmətlərin göstərilməsinə Abunəçinin hesabının (balansının) ödənişi bərpa edildiyi, borcun ödənildiyi və təkrar qoşulmaya görə əlavə haqqın, o cümlədən tətbiq edilmiş cərimələrin ödənildiyi vaxtdan başlanılır.

4.8. Abunəçinin xidmətdən yararlanması üçün, növbəti ayın abunə haqqını cari ayın son gününədək ödənilməlidir. Ödəniş günü pul vəsaiti Operatorun ofisi və ya veb-səhifəsi və ya Operatorun girişi olan digər ödəniş vasitələri (inkassatorlar) ilə həyata keçirilə bilər. Ödəniş vasitələri ilə bağlı ətraflı məlumat Operatorun veb-səhifəsində göstərilir və ya Müştəri Xidmətləri Mərkəzi vasitəsilə əldə oluna bilər.

4.9. Ödəniş bank və ya digər pul köçürmə vasitələri ilə həyata keçirilərsə, ödəniş tapşırığında Müqavilənin nömrəsi, Abunəçinin adı, soyadı və atasının adı mütləq göstərilməlidir.

4.10. Operator ödənişlə bağlı bildirişləri Abunəçiyə SMS, telefon zəngi, faks, elektron poçt və ya digər vasitələrlə göndərə və ya ona məxsus veb səhifədə, informasiya kanalında, habelə xidmət göstərdiyi müvafiq ərazi üzrə ayrılmış lövhələrdə elan şəklində yerləşdirə bilər.

4.11. Mövcud Tarif Planlı və Operator tərəfindən elan olunmuş kampaniya şərtləri çərçivəsində məhdud müddətli güzəştli tariflərin qiyməti, davam etmə müddəti, qoşulma, xitam və digər şərtlər barədə ətraflı məlumat Operatora məxsus veb səhifədə və informasiya kanalında, habelə xidmət göstərdiyi müvafiq ərazi üzrə ayrılmış lövhələrdə yerləşdiriləcəkdir.

4.12. Abunəçi tərəfindən internet xidmətləri və İP televiziya xidmətlərinin göstərilməsinin dayandırılmasına dair ərizə daxil olanadək həmin xidmətlərlə bağlı sayğac işləyəcək, habelə internet xidmətinin və (və yaxud) İP televiziya xidmətinin göstərilməsi dayandırıldığı halda kabel televiziyasının ödənişi ilə bağlı sayğac işləyəcəkdir.

4.13. Abunəçi tərəfindən xidmətlərin göstərilməsinin dayandırılması ilə bağlı yazılı ərizə daxil olduğu halda bu Müqaviləyə xitam verilir və Abunəçinin xidmətlərin göstərilməsinə görə əvvəllər ödədiyi məbləğ geri qaytarılmır.

4.14. Müvəqqəti xidmətlərin dayandırılması ilə bağlı cari təqvim ayının bitməsinə ən azı 3 (üç) iş günü qalana qədər Abunəçinin yazılı müraciəti əsasında xidmətlərin göstərilməsi növbəti təqvim ayının əvvəlindən dayandırılır. Xidmətin dayandırılmasnın minimal müddəti - 1 (bir) təqvim aydır. Abunəçi il ərzində Operatorun şəbəkəsinə 2 (iki) dəfədən artıq qoşulub ayrıldığı halda, hər növ xidmət üzrə qoşulma zamanı bu proses üçün Operatora 20 (iyirmi) AZN ödəməli olur.

## 5. NÖQSANLARIN ARADAN QALDIRILMASI

5.1. Göstərilən xidmətlərdəki qüsurlar barədə şikayətlər, irad və təkliflər Müştəri Xidmətləri Mərkəzi vasitəsi ilə qəbul edilir. Müraciət edərkən müqavilənin nömrəsini söyləmək və qüsurun xarakterini təsvir etmək kifayətdir.

5.2. Abunəçinin istifadə etdiyi avadanlığın istismarının aşağıda göstərilən halları xidmətlərin keyfiyyətinə dair Operatora şikayət və irad təqdim etməyi istisna edir:

- Abunəçinin yaşadığı ərazidə elektrik qidalandırılmasının dayandırılması, habelə enerji təchizatı təşkilat tərəfindən elektrik qidalandırmasının parametrlərinin pozulması;
- Abunəçinin digər mənbələrdən əldə etdiyi avadanlıqlardan istifadə edilməsi;
- Abunəçi tərəfindən istifadə edilən avadanlığın istismar şərtlərinin pozulması;
- Abunəçinin istifadə etdiyi avadanlığın qeyri-standart və ya sertifikatlaşdırılmamış olduğu halda;
- Abunəçi tərəfindən qeyri-satandart və ya lisenziyalaşdırılmamış proqram təminatından istifadə edilməsi;
- Abunəçinin və ya üçüncü şəxslərin təqsirlərindən operator şəbəkəsinin zədələnməsi;
- Abunəçinin istifadə etdiyi avadanlıqda Operator tərəfindən yerinə yetirilmiş və təhvil verilmiş tənzimləmənin pozulması.

5.3. Operator şəbəkəsində xidmətlərin göstəriməsinə maneçilik yaradan nasazlıqları fors-major halları istisna olmaqla 48 saat ərzində Operator aradan qaldılır.

## 6. OPERATORUN ŞƏBƏKƏSİNƏ QOŞULMA ŞƏRTLƏRİ

Operator tərəfindən qoşulma pulsuz olaraq 3 iş günü ərzində həyata keçirilir.

6.1. Operatorun təqdim etdiyi internet xidmətinə qoşulmaq üçün əsas şərt Abunəçinin istifadə etdiyi əməliyyat sisteminin distributiv sürətinin olmasıdır.

6.2. Operatorun təqdim etdiyi xidmətlərə qoşulmalar avadanlıq və ləvazimatlar istisna olmaqla Operator tərəfindən pulsuz həyata keçirilir.

6.3. Operatorun mülkiyyətində olan avadanlıqlar və ləvazimatlar kampaniya çərçivəsində Abunəçilərə pulsuz verilə bilər. Bu avadanlıqlar bu Müqaviləyə xitam verildikdə Operatora normal, iş fəaliyyət qabiliyyəti olan şəkildə geri qaytarılmalı, hər hansı qüsur və xəsarət olduğu halda Abunəçi hər bir avadanlığın dəyərini pul vəsaiti ilə ödəməyə borcludur.

6.4. Abunəçi sərbəst şəkildə özünün Tarif Planını və televiziya proqram paketini dəyişmək hüququna malikdir. Bu halda, Operatorun ofisinə gələrək yazılı ərizə ilə müraciət etməli və ya bu ərizəni poçt kuryer vasitəsi ilə xəbərnaməli poçtla göndərməlidir. Ərizə xidmətin reallaşdıracağı növbəti aydan ən azı 5 (beş) iş günü əvvəlcədən qeydiyyata alınmalıdır.

6.5. Operatorun təqdim etdiyi xidmətlərdən istifadə edərkən aşağıdakılar qadağan olunur:

- digər abonentlərin (istifadəçilərin) xidmətə qoşulmağını məhdudlaşdırmaq və ya maneçilik törətmək;
- Azərbaycan Respublikasının qanunvericiliyinə, beynəlxalq qanunvericiliyə və etik normalara zidd olan hər hansı bir informasiyanı ötürmək;
- Viruslar və zərərli komponentlər olan hər hansı bir proqram təminatını və ya informasiyanı ötürmək və ya dərc etmək;

6.6. İP televiziya və kabel televiziyası avadanlığı kampaniyalar istisna olmaqla Abunəçinin öz hesabına əldə edilir və bu zaman Operator tərəfindən tövsiyyə olunan avadanlığın aşağıdakı çeşidi və Abunəçi tərəfindən seçilmiş xidmət növü nəzərə alınır:

- SD/HD MPEG2 və DVB-C/C2 formatında televiziya verilişlərin izlənməsi üçün avadanlıq;
- İP televiziya siqnallarını qəbul edən "İPTV STB" avadanlığı.

## 7. MÜQAVİLƏNİN QÜVVƏDƏ OLMA MÜDDƏTİ, XİDMƏTLƏRİN DAYANDIRILMASI VƏ MÜQAVİLƏYƏ XİTAM

7.1. Abunəçinin fəaliyyəti operator şəbəkəsinin normal fəaliyyətinə təhlükə yaratdığı halda, bu hərəkətlərin qarşısını almaq, habelə aşağıdakı hallar baş verdikdə təqdim edilən xidmətləri dayandırmaq:

- Abunəçi tərəfindən Operator xidmətlərinin ödənişi bu Müqavilədə göstərilən müddətdə həyata keçirilmədikdə;
- Abunəçi tərəfindən nasaz avadanlıqdan istifadə edildikdə, yaxud Abunəçi tərəfindən avadanlığın texniki istismar qaydaları pozulduqda və ya bu Müqavilədə nəzərdə tutulmayan avadanlıqdan istifadə etdikdə;
- fiziki, topoqrafik və digər təbii maneələr nəticəsində xidmətlərin göstərilməsi mümkün olmadıqda;
- Hərbi vəziyyət elan olunduqda.
- Abunəçi tərəfindən üçüncü şəxslərə xidmət verilərsə.
- xidmətlərin göstərilməsi dövlətin müdafiəsinə və təhlükəsizliyinə, insanların sağlamlığına və təhlükəsizliyinə təhlükə yaratdıqda;
- Abunəçinin hərəkətləri və ya hərəkətsizliyi Operatorun şəbəkəsinin və ya avadanlığının müvafiq qaydada fəaliyyətinin pozulmasına təhlükə yaratdıqda;
- qanunvericiliklə nəzərdə tutulmuş digər hallarda.

7.2. Bu müqavilə tərəflərin onu imzaladığı gündən qüvvəyə minir və 1 (bir) il müddətində öz hüquqi qüvvəsini saxlayır.

Abunəçi Müqavilə müddətinin bitməsinə 10 (on) gün qalmış digər Tərəfə bilavasitə və ya yazılı müraciət etmədikdə Müqavilə hər növbəti 1 (bir) il üçün uzadılmış hesab olunur.

7.3. Müqavilədə qeyd edilənlərə baxmayaraq, Abunəçiyə öz seçiminə əsasən xüsusi endirimli Tarif Planı ilə xidmətlər təqdim olunarsa və Müqaviləyə xüsusi endirimli Tarif Planının qüvvədə olma müddətindən əvvəl Abunəçinin təşəbbüsü ilə birtərəfli qaydada xitam verilərsə, Abunəçi seçilmiş xüsusi Tarif Planı üzrə istifadə olunmamış müddətin dəyərini Operatora ödəmək öhdəliyini daşıyır.

7.4. Müqaviləyə Tərəflərin qarşılıqlı razılığına əsasən istənilən vaxt xitam verilə bilər.

7.5. Tərəflərin birinin hərəkəti, yaxud hərəkətsizliyi nəticəsində Müqavilənin şərtlərini yerinə yetirmək mümkün olmadıqda, digər Tərəf bu Müqaviləyə birtərəfli qaydada xitam verə bilər.

7.5.1.Operatoraşağıdakı hallarda və öz seçimi əsasında bu Müqavilənin icrasını birtərəfli qaydada dayandıra və ya ona xitam verə bilər:

7.5.2. Abunəçinin bu Müqavilə üzrə xidmətlərdən istifadəsi nəticəsində Operatorun istismarında olan texnoloji avadanlığına və xidmətin keyfiyyətinə mənfi təsir göstərildikdə.

7.5.3. Operator şəbəkəsinə aid texniki və ya profilaktik işlərin aparılması ilə əlaqədar olaraq.

7.5.4. Abunəçi tərəfindən Operatorun istismarında olan şəbəkə və ya rabitə kanalları vasitəsi ilə Operatora hər hansı üçüncü şəxslərə və ya dövlətə ziyan yetirən hərəkətlərin edilə biləcəyinə güman etməsinə əsas olduqda.

7.5.5. Abunəçi bu Müqavilə üzrə ödəniş öhdəliklərini, ümumilikdə hər hansı, öhdəliklərini tam və ya qismən yerinə yetirmədikdə.

7.5.6. Qanunvericiliklə nəzərdə tutulmuş digər hallarda.